# İlham Əliyev diplomatiyasının möhtəşəm uğuru

## COP29 Azərbaycanın dünyaya daha geniş təqdimatı olacaq



**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi qərara alınıb. Təbii ki, bu, hər şeydən əvvəl Azərbaycana olan etimad, inamın göstəricisidir. Son illərdə ölkəmizin bir çox mühüm beynəlxalq konfranslara, tədbirlərə evsahibliyi Azərbaycanın bu sahədə də kifayət qədər təcrübəyə malik olduğunu göstərir.**

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu çərçivədə həyata keçirilən beynəlxalq tədbirləri - SPECA-nın Zirvə görüşü, Beynəlxalq Astronavtika Konqresi kimi mühüm toplantıları nümunə göstərə bilərik. Təbii ki, bu siyahını uzatmaq mümkündür.

COP29-un ölkəmizdə keçirilməsinin bir çox tərəfdən əhəmiyyəti danılmazdır. Amma hər şeydən öncə bəzi dairələrin Azərbaycana qarşı qarayaxma kampaniyası apardığı dövrdə yekdilliklə bu qərarın verilməsi ölkəmizə olan inamın, dəstəyin bariz nümunəsidir.

Artıq bu istiqamətdə hazırlıq işlərinə başlanılıb. Bununla bağlı dekabrın 15-də Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Müşavirədə tədbirin önəmindən danışan dövlət başçısı qeyd edib ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunub və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə edib: "Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni burada yekdil mövqe bir daha özünü göstərdi".

Prezident vurğulayıb ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə də dərhal bütün hazırlıq işlərinə başlanılmalıdır. Prezident tədbirlə bağlı öz tapşırıqlarını verib.

Milli Məclisin deputatı Vüqar Bayramov mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, COP29 miqyasına, iştirakçılıq sayına və statusuna görə dünyanın ən böyük tədbirlərindən biridir. Son iki COP tədbirlərinə 70-100 min iştirakçının qatıldığını, 50-dən artıq dövlət rəhbərinin konfransda iştirakını xatırladan deputat qeyd edib ki, bu baxımdan COP29-a evsahibliyi etmək bir tərəfdən Azərbaycana inamın göstəricisi, həm də ölkəmizin uğurlu təqdimatıdır. Azərbaycanın 2024-cü ildə bu konfransa evsahibliyi etməsi tarixi hadisə olacaq. COP29-un Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun göstəricisidir. Bununla yanaşı, bu, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin uğuru kimi də qiymətləndirilməlidir. "Çünki COP29-a sistemli şəkildə evsahibliyi edilməsi ilə bağlı fəaliyyət həyata keçirildi və nəticədə bununla bağlı qərar verildi. Beynəlxalq tədbir həm də Azərbaycanın potensialının daha yaxından təqdim edilməsinə imkan verəcək. İndiyədək regionda bu miqyasda konfrans, tədbir təşkil edilməyib. Ona görə bu, həm də miqyasına görə regionda təşkil edilən ilk beynəlxalq konfrans baxımından da xüsusi əhəmiyyət daşıyır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.6.